## 2024-cü ilin avqust ayı üzrə nəticələr

2024-cü ilin avqust ayı üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 805 müraciət daxil olub.

**Bunlardan:**

Elektrik enerjisi təchizatı ilə bağlı 80-i məlumat üçün olmaqla cəmi 737 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 1-i məlumat üçün olmaqla cəmi 53 müraciət;

İstilik təchizatı ilə bağlı cəmi 1 müraciət;

2-si məlumat üçün olmaqla 14 müraciət isə digər məsələlərlə bağlı olub.

**805 müraciətdən:**

345 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (7 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

2 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

375 müraciət hazırda baxılma prosesindədir;

83 məlumat xarakterli müraciətdən 39-u qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

### ELEKTRİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 7 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

32 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

"Azərenerji" ASC və "Azərişıq" ASC-nin nümayəndələrinin iştirakı ilə 18 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib;

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri üzrə Agentlik tərəfindən ümumilikdə 21 inzibati xəta haqqında işə baxılmış, onlardan 20 iş üzrə inzibati tənbeh

vermə haqqında qərar, 1 iş üzrə isə inzibati xəta haqqında iş üzrə icraata xitam verilməsi barədə qərar olunmuşdur.

## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 91 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, "Qazdan istifadə Qaydaları"nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 81 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 20 müəssisədə 39 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikasıqaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.